**525-ci qəzet.** - 2019.- 19 aprel. - № 64. - S. 12-13.

# İbn Ərəbi fəlsəfi görüşləri və Nəsimi təsəvvüfü

**Himalay Ənvəroğlu,**
professor
**Elman Quliyev,**
professor

Min illər boyu dini-mənəvi düşüncələr insan, zaman, varlıq kontekstində Yaradan və mövcud olan, daha doğrusu, Allah və insan (cəmiyyət) haqqında təlimlər sistemi yaratmağa xidmət göstərmiş, mütləq dəyərlər axtarışında yeni-yeni dini-fəlsəfi təməllərin əsasını qoymuşdur.

Orta əsrlər Şərq fəlsəfi və bədii düşüncəsinin formalaşmasında mühüm rol oynamış, yeni elmi təlimin əsasını qoymuş şəxsiyyətlərdən biri də İbn Ərəbidir. İbn Ərəbi təliminin əsasını ağıl və idrak prosesində dərk olunanların və görünənlərin insan təxəyyülündə "Vəhdəti-vücud" fəlsəfəsinə uyğun dəyərləndirilməsi təşkil edir. Bu mənada o, həm Şərqin, həm də Qərbin bir çox ədəbi-fəlsəfi, nəzəri fikir dühaları ilə müəyyən fərqli və bənzərli müstəvidə dayansa da, dahi Azərbaycan şairi İ.Nəsimi ilə daha çox oxşardır. Belə demək mümkünsə, İbn Ərəbi ilə Nəsimi zaman etibarilə müxtəlif dövrlərdə yaşasalar da, onlar fikir, ideya, ürfani görüşlər, fəlsəfi ədəbi düşüncə və s. baxımından bir-birlərinə yaxın olmuş, İbn Ərəbi təlimi müəyyən mənada Nəsimi tərəfindən davam və inkişaf etdirilmişdir. Belə ki, Nəsimi ilk öncə insanların düşüncə tərzini dəyişdirməyin qayğısını çəkirdi. Bunun üçün ən gözəl vasitə ilahi eşqi şeirin başlıca predmetinə çevirmək idi. Ona görə ki, eşqdə ilahi saflıq var. "Məhəbbət" "Tamı" daha dərindən duymağa imkan verir, mahiyyəti dağılmağa qoymur. Bu, səmavi hökmranlığa daxili yol açdığı kimi, ruhi bərabər olanların da bir-birini dərk etməsinə imkan yaradır. Nəsimi eşqə daha dərin məna verir. Onun mahiyyətini maddi-cismanidə deyil, ruh-mənəvidə arayır:

Sirri-mütləq eşqdir, həqqü həqiqət eşqdir,
Varlığı yoxdur onun kim, eşqdən düşmüş kənar.

Şair demək istəyir ki, "mütləq"in, yəni tanrının sirri, qüdrəti "eşqdir", Həqqin həqiqətini, daha doğrusu, Allahın sirrini bu eşqdən kənarda kəşf etmək qeyri-mümkündür.

Bu fikirlər İbn Ərəbinin vəhyə əsaslanan insan təxəyyülünün gücünə verdiyi önəmlə üst-üstə düşür. Şeyxə görə, peyğəmbərə vəhy olunan bilgi insanın təxəyyül gücünə yerləşə bilər. Ağıl bilgini duyğu üzvləri vasitəsilə ətraf gerçəklikdən alıb predmetə çevirir.

İslam fəlsəfi fikir tarixinin tanınmış şeyxi İbn Ərəbi "həqiqət" sistemlərinin özəl xüsusiyyətləri, forma və prinsipləri haqqında bütöv bir təlim yaratmışdır. Heç şübhəsiz, bunlar tam mənada "vəhdəti-vücud" fəlsəfəsinə əsaslanan, varlığın tək, tək olanın isə Allah olması təliminə söykənən fikir cərəyanıdır. Bu məqam Nəsiminin "Allaha qayıtmaq" fəlsəfəsi ilə üst-üstə düşür, İbn Ərəbi fikirlərinin Nəsimi düşüncəsində başqa bir "tərzin", lakin "eyni mahiyyətin" göstəricisinə çevrilir.

Nəsiminin lirik qəhrəmanının qənaətinə görə, biz (təbiət, insan, subyekt) əvvəldən vahidik. Təbiətimiz məhəbbətdə və Allahda birdir. Yəni ilahidən ayrılmaq, "təbiətimizdən" ayrılmaq özündə müqəddəs olanı məhv etməkdir. Beləsi məhəbbətdə, müqəddəslikdə birləşə bilməz. Nəsiminin fikrincə, inamın kamilliyi Allaha qayıtmaqdır. Şairin izlədiyi panteizm fəlsəfəsinin məramından görünür ki, hamı tanrıdadır, harmoniya dağılan deyil. Lakin inkişaf edən də deyil. İnsanların canlı harmoniyası Allahla birliyidir. Nəsimiyə görə, bu, ilahi hökmranlıqdır. Məhz bu mənada Nəsiminin görüşləri ilahi hökmranlığın harmoniyasına əsaslanır. Çünki bəzi tədqiqatçıların mülahizələrinin əksinə olaraq əslində, şəriətlə Nəsiminin tanrı haqqında qənaətləri arasında ixtilaf yoxdur. Daxildən onlar bir-birini tamamlayır. Fərq zahiri məqamlarda, haqqa çatmaq yollarının üst-üstə düşməməsindədir.

Əzəl gündən tanrı birdir, bir olaraq qalacaq da,
Sənin ruhun haqqın nuru, ağlın isə bir peyğəmbər.

Göründüyü kimi, şair Allahın birliyinə, əzəli və əbədiliyinə dərin inam və etiqad bəsləyir, ruhun əsasını haqqın nuru kimi qəbul edir.

Bütün bu deyilənlər belə bir yekun qənaəti doğurur ki, "sirri-sübhanı" anlamaq yollarında İbn Ərəbi düşüncəsi müəyyən mənada Nəsimi şeirinin təsəvvüf qaynağına çevrilir və özünəməxsus axarda inkişaf etdirilir.

Ta qədimlərdən bəri islam düşüncəsində varlığı zehniyyatla dərk edənlərlə hissi-emosional qavrayanlar, başqa sözlə, regionalistlərlə sufilər arasında ixtilaflar mövcud olmuşdur.

İslamda sufizm, təsəvvüf fəlsəfəsinin hüdudları genişdir. Sufizm insan şüurunu buxovlardan azad etməklə sənətkara həyatı bütün gözəlliyi ilə dərk etmək imkanı verdi. Hər şeydən əvvəl ona görə ki, bu fəlsəfədə düşüncə sistemi məhəlləçilikdən uzaqdır, Vətən, millət, din anlayışları ya tamamilə yoxdur, ya da nisbi şərtilikdə əksini tapır. Şərq sufi şairləri, o cümlədən, İbn Ərəbi və Nəsimi gözəllikdən vəcdə gələrkən, sevgi cəfalarını, hicran əzablarını vəsf kontekstində Allaha qovuşmaq həsrətini, ondan ayrı düşmək məşəqqətini də dilə gətirmiş olurlar. Onların poeziyasında çatılmaz dərinlik və incəliklə gerçək insani hislər, iztirablar və sevinclər, peşmançılıqlar və ümidlər vəhdət təşkil edir. Bu poeziyada vəhdətə can atma təbiidir. Çünki hər şey nəyinsə hissəsi olsa da, öz həllini bütövdə, başqa sözlə, vahiddə, mütləqdə tapır.

Nəsimi sufi görüşlərinin həm də İbn Ərəbi təsəvvüfündən qaynaqlandığı məlum həqiqətdir. İbn Ərəbi ilahi hüsnü, gözəlliyi, saf eşqi, dünyəvi gözəlliklə ilahi gözəlliyin vəhdətini, eyniyyətini vəsf edir. Nəsimi də İbn Ərəbi kimi eşqi məhz ilahi eşq səviyyəsində poetik düşüncə predmetinə çevirir. "Haqq mənəm", "Haqq məndədir" inamında israrla olan böyük sufi şair Nəsimi insanın ilahi başlanğıcına önəm verir, İbn Ərəbiyə görə sufi-şair ruh aləminin yolçusudur. O, bu yoldakı düşüncələrini gah şeirin, sənətin, gah da fəlsəfənin fikir imkanlarında ifadə edir. Sufi ilham, vəcd şairə Haqqı görmək, eşitmək, duymaq, Haqla özü arasındakı pərdələri bir-bir qaldıraraq ona qovuşmaq imkanı verir. Lakin bu elə də sadə məsələ deyil. Məsələn, İbn Ərəbi "gördüyüm gözəllik idraka sığmır" deməklə idrakın gücsüzlüyünü etiraf etmiş olur. Deməli, elə gözəlliklər var ki, onu yalnız görmənin fiziki yox, bəsirət imkanları ilə, "qəlbin gözü ilə" (Nizami) görmək mümkündür. Böyük Azərbaycan şairi Füzuli də ilahi gözəlliyi dərk etməkdə idrakın yetərli olmadığından təsadüfi gileylənməmişdir.

"Eşq tanrıçılığı" sufi-fəlsəfi düşüncə axarı ilə irəliləyən Nəsiminin lirik qəhrəmanında Mühyiddin İbn Ərəbi təsirinin duyulması təbiidir. Məhz İbn Ərəbi ilahi eşq düşüncəsini konseptual məcraya yönəltmişdir ki, burada təsəvvüf özünün fəlsəfi imkanlarını tam gücü ilə ortaya qoya bilmişdir. Bu konsepsiyaya görə, göylərdən o tərəfə boylanmaq və orada öz könül mülkünə qovuşmaq məhz seçilmişlərin qismətidir. Sufi şair isə bu zirvəni poetik ilhamın, vəcdin vüsət və qüdrəti ilə fəth edə bilir. Burada önəm kəsb edən yaradanı özündə tapmaq yox, özünü ilahidə tapmaqdır, onun içində əriməkdir. Eşqlə gözəlliyin təməl prinsiplərinin reallaşması məsələlərinə İbn Ərəbi ilə Nəsiminin özəl baxışları olsa da, çıxışlıq məqamında oxşarlıqlar, yaxınlıqlar da kifayət qədərdir. İbn Ərəbinin gözəllik barədə söylədiyi aşağıdakı fikirlərdə insan xislətinin fəlsəfi düşüncə predmetinə necə həssaslıqla çevrildiyi aydın sezilir.

O yazır: "Sevginin səbəbi gözəllikdir. Zira gözəllik təbiətcə sevilən şeydir". Nəsimidə də eşq və gözəllik iki nisbi bərabərlik olaraq vəsf edilsə də, sonucda eşq üstünlük təşkil edir. Bununla belə, Nəsimi poeziyasında eşqin önəmi heç də dini hissin unudulması kimi başa düşülməməlidir. Lakin bir vaxtlar ədəbi tənqiddə və rəsmi fəlsəfəçilərin düşüncəsində belə bir yanlış yozumlama olmuşdur ki, guya Nəsiminin ilahi eşq haqqında görüşlərinin mərkəzində yaşarlı Şərq konsepsiyası təsəvvüf dəyərləri deyil, məhz həyati gözəllik öndə olmuşdur.

Lakin Nəsimidə varlıq təsəvvüf mənasında vəhdəti, vücudi-mütləqi, ona qovuşmağı, ondan qopub yenidən ona qayıtmağı nəzərdə tutur. Varlıq, "kövnü məkan" ilahi eşqin təzahürüdür. Sufizmin fəlsəfi əsası olan panteizmdə, varlıq özü ilahi ruha və hüdudu olana ayrılır. Bu baxışa görə zahirdə bir-birindən ayrı düşənlər səma altında birlik təşkil edir. İstək obyektlə vəhdətdə olmaq arzusudur. Gözəllik ilahi başlanğıc kimi vəhdəti, bütövün harmoniyasını ifadə edir.

Bizə belə gəlir ki, Nəsiminin görüşlərində dinə, şəriətə, müqəddəs ruhani şəxsiyyətlərimizə qarşı zidd meyllərin axtarılması dövrləri indi artıq arxada qalmışdır. Bu gün Nəsimi fikir azadlığına, şəxsiyyətin etiqad sərbəstliyinə geniş meydan açan şair-mütəfəkkir kimi doqmatik təsəvvürləri misilsiz sənət qüdrəti ilə kənara atır, tanrıya, müqəddəs-ruhani kökümüzə qayıtmağın yollarını maddilik xıltlarından təmizləyir. Nəsiminin qəbul etdiyi və sənətinin qüdrəti və şəxsiyyətinin ləyaqəti ilə reallaşdırmağa çalışdığı, yolunda özünü fəda etdiyi hökmranda hamı üçün ümumi olan var. Bu hökmranlıqda həyatın birliyi duyulur, əksliklər aradan götürülür. Nəsiminin fikrincə, insanları məhəbbət vasitəsilə birləşdirməkdən dərin ideya ola bilməz. Bu, bütövdə, vahiddə ilahi ruhu görməkdir. Sufizmdə vəhdət, birlik yaradana qovuşmaq, onunla birləşməkdir. Bu konsepsiyanı şair özünəməxsus şəkildə, ardıcıl surətdə lirik qəhrəmanın təhkiyəsində reallaşdırmağa çalışmışdır:

İkilik küfrdür, rədd et, sən ol tək, vahidü yekta,
Xudadan başqa hər şeydən uzaqlaş, ey dili-şeyda.

Misralarda vəhdətin doğurduğu vəcd şairin könül evini məftun etdiyi xudanın yeganə şövq predmeti olması tərənnüm edilmişdir. Şairin "vəhdət məqamına inamı" sənət eşqi olmaqla bərabər, həm də görüşlərinin əsasını təşkil edir. Nəsimi sufi şair kimi din, məzhəb, şəriət ziddiyyətlərini, təfriqəçiliyi rədd edir, insanları dinindən asılı olmayaraq vahid bir etiqad altında birləşdirməyə çalışırdı. Sufizmdə olduğu kimi, Nəsimi də ruhi azadlığı, şəxsiyyətin mənəvi sərbəstliyini əsas tuturdu

Bu aləmi-möhnətdə yox alçaq-uca əsla,

Haqq yolda birgə gedir müsəlman ilə tərsa.

Şair "aləmi-vəhdət" deyəndə real dünyanı, "kövnü məkanı" deyil, məhz Allah dərgahını, "vücudi-mütləqi" nəzərdə tutur. Allah üçün bəndələrinin hamısı birdir. Din onları bir-birindən ayıran vasitə deyil, əksinə, tanrıya bağlayan amildir. Hegelin "Din fəlsəfəsi"ndə irəli sürdüyü ən mühüm qənaətlərdən biri budur ki, dinə cəhd tanrıya məhəbbətin ən yüksək formasıdır.

Nəsiminin bir beytində insan konsepsiyası ilahi eşq ideyası kontekstində belə formalaşdırılmışdır:

Zahid mənəm, abid mənəm, asi mənəm, fasiq mənəm,
Mömin mənəm, kafir mənəm, mən külli-insan olmuşam.

Nəsiminin tarixi şəxsiyyətinə və ədəbi simasına, izlədiyi qayənin saflığına bələd olan hər kəs çox gözəl anlayır ki, beytdə "mən" anlayışına aid edilən həmin dəyərlər bilavasitə şairin şəxsi "mən"i və onun "külli-insan" anlamı ilə vəhdət təşkil edir. Əlbəttə, "külli insan" sırasında - zahid, abid, asi, fasiq, mömin, kafir və s. dayana bilər. Lakin bunlar fərdi məna kəsb etdikləri üçün ayrılıqda ümumi-substansional mənaya malik deyillər. "Külli-insan" daha çox xeyirin təntənəsini özündə ehtiva etdiyinə görə məhz substansional əsasa malikdir. "Külli-insan" tanrı eşqinin daşıyıcısı və onu təzahür etdirəndir. "Kaf" ilə"nun", "kün" - "fəyəkün" ilk öncə "külli-insanı" yaradıb, "asi" və "fasiq"i yox.

Nəsiminin taleyi xalqın həyatına yanmağında, ona zərurət gətirməyində idi. Nəsimi ilə mövcud real aləmin, tarixi şəraitin qarşıdurması gedirdi. Onun ruhu bu aləmdən azad yaşayırdı. Aləmini onu hədələyən taledən ayırmırdı. Şairi vəcdə gətirən eşq onu tanrısı ilə vəhdətə çəkirdi. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Nəsimi tarixi şəraiti öz idealına qarşı qoyurdu. Bu da onun məhvini irəlicədən qərarlaşdırırdı. O, öz taleyinin qabaqcadan verilmiş göstərişindən qaçmağa səy etmədi. Ölümü sevinclə qarşıladı və inamla fani dünyadan köç etdi. Nəsimi tanrının birliyini, əzəli olmasını vəsf edərkən anlayırdı ki, o, hər şeyin əvvəli və axırıdır. Hamı, hər şey bu nöqtədən çıxır və yenidən ora qayıdır. Allah elə mərkəzdir ki, hər şeyə əsas gətirir və həyat formasında olanların hamısını canlandırır. Allah təbiət aləmi üzərində hökmrandır ruhun üzərində hakimdir. O, hər iki başlanğıcın mütləq harmoniyasıdır və bu harmoniyanı doğurur, eyni zamanda, onda mövcud olur. Nəsimi görüşlərində ilahi başlanğıc lirik şeirlərinin idrak predmeti kimi təzahür edir. Şair bu problemin ağırlıq mərkəzini "özünü dərk" və "özünü tərk" müstəvisi üzərinə keçirir: "Sən özünü dərk elə ki, haqq sirrini dərk edəsən", "Sən özünü dərk eləsən, dərk edərsən tanırını da", "Tərk et özünü dərk edəsən ta ki xudanı". Diqqət yetirilsə aydın anlaşılar ki, şair lirik qəhrəmanını çətin və mürəkkəb bir prosesə daxil edir. Yəni "müəmma"nın "aydınlaşması" üçün "xacə" təkcə "özünüdərk"lə kifayətlənə bilməz, həm də "özünü tərk" etməlidir. Başqa sözlə, mərifət məqamına ucalmaqla xudanı dərk etmək olar. Bunun üçün həm də gərək vəcdə gələsən, özünü şövq predmeti kimi duyasan. Daha doğrusu, gərək elə bir ruhi-mənəvi məqama çatasan ki, şairin özünün dediyi kimi, "Ta zatına bir yol tapıb dərk edəsən əsrarını. Bu yalnız ruhu xüsusiləşdirmək, zahiri məqamları təcrid etmək, müvəqqətinin hökmranlığından azad olmaqla mümkün olar.

Nəsimidə özünüdərk əbədiləşir. Çünki ruhun özünüdərki əbədidir, mütləqdir, əbədi həyat anıdır. Yəni zamandan, dəyişiklikdən, reallıqdan, ikilikdən ucada durur. Allahın bizə görmək imkanı verməsini Nəsimi bədii idrakının qüdrəti ilə, daxili bir inamla vəsf etmişdir:

Haqq bizə göz verdi, biz də haqqı gördük, Cavidan,
Şeylərə öz hüsnümüzlə güzgü olduq hər zaman.

Nəsimi tanrını şüur predmetinə çevirir, idrakı Allahla münasibətə yönəldir. Allah haqqında təlimdə bildirilir ki, o, özü özündə obyektdir, ruhu bilən ruhdur. Bütün yüksək dinlərdə Allah mütləq, vahid substansiyadır və eyni zamanda subyektdir. Yəni insan şəxsiyyətə malikdir, onda müəyyən subyektivlik, fərdilik var. Nəsimi şeirlərində bəşəri və ilahi vəhdət təşkil edir. Bu lirikada ruhun dərinliyinə nüfuz edilir. Aparıcı qəhrəman fani olub, Allaha qovuşmaq həsrətini çəkir. Bədii ideyanın qüdrəti sayəsində insan Allah dərəcəsinə yüksəlir. Burada aləm və kainat vəhdətdən ibarətdir. Həmin vəhdəti əmələ gətirən zat isə "eşqi - ilahi"dir. Bu baxımdan böyük Füzuli təsadüfən yazmamışdır ki, "Vadiyi-vəhdət həqiqətdə məqami eşqdir". Nəsiminin görüşlərinə görə aləmin başlanğıcı Allahın varlığının isbatıdır. İnsan gözəlliyi Allahın qüdrətinin təzahürüdür. Sufi görüşlərində ikilik küfr hesab edilir, cənnət və cəhənnəm haqqında təsəvvürlər kor - koranə qəbul olunmur:

Ey yarının əhvalından heç bir xəbər tutmayan,
Bil ki, dünya və axirət cümlə yardır, vəssalam.

Təsəvvüfdə "yar" ruhi-mənəvi mənaya malikdir. Çünki cismani olan keçicidir, müvəqqətidir və fani olandır. Nəsiminin vəhdət şərabından məst olan lirik qəhrəmanına şövq gətirən, onu "qəlb Turuna" qaldırıb

könlünə "cila" verən yar yalnız yaradan olur. Şairin sufizm görüşləri əsasında yazdığı şeirlərdə başlıca fikir Allaha doğru gedən yolun məhəbbət olmasıdır. Nəsimiyə görə, Allah insanda, təbiətdə, əşyada təcəssüm edir və insan daxili təkamül yolu ilə Allahla birləşib "ənəlhəqq" ola bilər. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, şəriət xadimlərini ən çox qəzəbləndirən məhz bu kimi görüşlər olmuşdur. Buna görə də onlar "ənəlhəqq" deyən Həllac Mənsuru, Nəsimini və digərlərini kafir elan edib cəzalandırdılar. Faciə bundan ibarətdir ki, şəriətçilər "ənəlhəqq" anlamına zahiri mənada yanaşıblar, Nəsiminin sözləri ilə desək, "dar başlıq" ediblər. Əslində, şəriət də, Nəsimi də xudanı "vahidi-yekta"dan ibarət bilib, başqa baxışlılara "ikilik küfrdür" deyib. Lakin şəriətlə Nəsiminin fərqi Allahın birliyini müxtəlif formada qəbul etmələrində idi. Bu isə zahiri əlamətdir. Daxildə hər iki meyil bir-birilə ziddiyyət təşkil etmir. "Vəhdəti-vücud" anlamına, onun yaratdığı şövqə şəriətçilər heç də biganə deyildilər. Bir sözlə, təsəvvüf görüşləri islama yad deyildir, əksinə, onu daxildən zənginləşdirib tamamlayırdı. Bu baxımdan aşağıdakı beytin məzmunu Nəsimi görüşlərinin məntiqi təzahürü kimi yozulmalıdır:

Batinim öylə bürünmüşdür, "ənəllah" nuruna,
Könlümü mütləq odur Musa odunda, yandıran.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Nəsimi bir çox qəzəlində "Ənəllah", onun nuru, "Ənəlhəqq", "Musa odu", xüsusilə, "Anəstünarən" ("mən bir od gördüm") və s. ifadələri kifayət qədər işlətmişdir. Bunlar Nəsimi lirikasının, eləcə də görüşlərinin təfsirində xüsusi çəkisi olan, dərin ruhi-mənəvi ideyaları rəmzləşdirən mühüm vasitələrdir.

Təbiidir ki, batini, yəni ruhi-mənəvi aləmi "ənəllah" nuruna bürünən, könlünü "Musa odunda" yandıran şairi, onun lirik qəhrəmanını "küfr"də günahlandırıb cəzalandırmaq subyektiv mülahizələrdən irəli gəlmişdir. Əslində, Nəsimi şeirlərində reallaşdırılan mühüm ideyaların təfsirini aparanda aydın olur ki, şair Qurana, özünün tez-tez ifadə etdiyi kimi "Müshəfə", müqəddəs dini yazılara, ruhani şəxsiyyətlərə, tarixi-əfsanəvi simalara böyük hörmət və ehtiramla yanaşmış, bəşərin nicatında bunların misilsiz rolunu bədii idrakın predmetinə çevirmişdir.

Şair sevginin ülviliyini, ilahi mənasını, Tanrıya doğru yolun məhz könüllərdən keçdiyini vurğulayır. Yəni Nəsimidə də İbn Ərəbidə olduğu kimi, vəsf predmeti hər hansı bir sevgi deyil, məhz ilahi eşqdir. Bu eşqin isə aparıb çıxara biləcəyi bir yüksək məqam var ki, bu məhz Tanrıdır. Biz yuxarıda səsləndirilən Nəsimi örnəklərində təsəvvüfdən gələn, xüsusən, İbn Ərəbi fəlsəfəsində və poeziyasında yüksək səviyyədə tərənnüm olunan bir xəttin davamını aydın müşahidə edirik:

Səni bu hüsni-camal ilə, kamal ilə görüb
Qorxdular Haqq deməyə, döndülər insan dedilər.

Burada insan gözəlliyi ilə "hüsnü-eşq" vəsf predmetinə çevrilir. Bu baxımdan İbn Ərəbi və Nəsimi poeziyasında Haqqın həqiqətinin tərənnüm obyekti olaraq ilahi eşq müstəvisində sıx sıra təşkil etməsi təbiidir.

Həm İbn Ərəbi, həm də İmadəddin Nəsimi "hüznü bəla" şairləridir və onların şeirlərində sərgilənən heyrət yaradıcılıqlarındakı özəlliyi kəskin şəkildə göstərməkdədir. Hər iki şair klassik Şərq poeziyasının ölçüyəgəlməz simalarıdır.